**UOT 94"19/…"**

# XX ƏSRİN 90-CI İLLƏRİNDƏ NATO-NUN ŞƏRQƏ DOĞRU GENİŞLƏNMƏSİ PROSESİ

**G.M.MƏMMƏDOVA**
***AMEA-nın Tarix İnstitutu***
***gullermamedova@mail.ru***

*1994-cü ildə NATO-nun Brüsseldə keçirilən sessiyasında alyansın Şərqə doğru genişlənməsi haqda qərar qəbul edilir. XX əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq ABŞ NATO-nun genişlənməsi məsələsini öz xarici siyasətinin prioritet məqsədi elan edir. NATO-nun genişlənməsi ABŞ-ın öz təsir dairəsini genişləndirmək istəyi ilə bağlıdır. 1997-ci ildən başlayaraq Rusiyanın nüfuz dairəsi hesab edilən MDB məkanının da NATO-nun maraq dairəsinə düşdüyü elan olunur. 1999-cu ildə Polşa, Çexiya və Macarıstan NATO-ya qəbul edilir, Albaniya, Bolqarıstan, Latviya, Litva, Makedoniya, Rumıniya, Slovakiya və Estoniya alyansa daxil olmaq üçün namizədliklərini elan edirlər.*

**Açar sözlər:** NATO, Şərq, proses, genişlənmə, münasibətlər

Soyuq müharibə dövründə Şimali Atlantika Təşkilatı beynəlxalq münasibətlərə böyük təsir göstərmiş, sülhün, təhlükəsizliyin və beynəlxalq sabitliyin təmin edilməsində mühüm rol oynasa da SSRİ-nin və Varşava Təşkilatının dağılması NATO-nun mövcudluğuna ehtiyacı azaldır. Bir zamanlar dünyada yeni qüvvələr nisbətinin yaranması ilə əlaqədar meydana gələn hərbi təşkilat kimi Şimali Atlantika Təşkilatı ya buraxılmalı, ya da yeni vəzifələr icra etməli idi. Bir sözlə, uzun illər ərzində təşkilatın fəaliyyətini zəruri edən sovet təhlükəsi artıq aradan qalxdığı üçün, 90-cı illərdə NATO beynəlxalq münasibətlərə təsirini saxlamaqla yanaşı, həm də öz fəaliyyətini və strategiyasını yeni geosiyasi şəraitə uyğunlaşdırmalı idi.

1991-ci ilin noyabrında NATO Şurasının Romada keçirilmiş sessiyasında alyansın yeni strateji konsepsiyası qəbul edilir. Sənədə görə NATO məhəlli münaqişələrin tənzimlənməsi, Şərqi Avropa ölkələri ilə dialoqun genişləndirilməsi, Avropa təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələri yerinə yetirməli və Rusiya ilə yaxından əməkdaşlıq etməli idi (1, 482).

NATO-nun tərkibinin Mərkəzi və Şərqi Avropa ölkələri hesabına genişlənməsi məsələsi ətrafında ciddi diskussiyalar isə əsasən 1993-cü ilin sonu-1994-cü ilin əvvəllərində başlayır. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan

sonra təşkilatın keçmiş üzvləri ciddi-cəhdlə ümumavropa strukturlarına inteqrasiyaya can atır və NATO-ya üzv olmaq barədə məsələni xarici siyasətlərinin əsas məqsədinə çevirirlər. Bu dövlətlərə görə məhz alyansa üzvlük onların təhlükəsizliyinin təminatı olmalı idi.

90-cı illərin əvvəllərində öz xarici siyasət mənafelərini yenidən müəyyənləşdirən ABŞ və Qərbi Avropa dövlətləri isə hələlik Şərqi Avropanın işlərinə müdaxilə etməkdən ehtiyat edirdilər. Yeni üzvlərin təşkilatın xərclərini artıracağından çəkinən qərbdə bəhs edilən dövrdə bu məsələyə münasibət müxtəlif idi. Məsələn, Almaniya və Fransaya görə Mərkəzi Avropa dövlətləri Avropa İttifaqı çərçivəsində imzalanacaq müdafiə razılığı ilə kifayətlənməli idilər. Böyük Britaniya isə alyansa üzv olmaq istəyən dövlətlərin məsələsini həll etməmişdən öncə, Mərkəzi Avropa dövlətlərində demokratik islahatların keçirilməsi və bazar iqtisadiyyatının yaradılmasının vacibliyini vurğulayırdı (2, 40-41).

Bu məsələdə Rusiyanın mövqeyi isə qeyri-müəyyən idi. Soyuq müharibədən sonra belə bir təsəvvür yaranmışdı ki, Qərblə Rusiyanın münasibətlərində qarşıdurma vəziyyəti keçmişdə qalıb və artıq demokratiya, sülh və dostluq dövrü başlayır. ABŞ ilə strateji əməkdaşlıq haqda illüziyalara qapılan B.Yeltsin də hələ 1993-cü ilin avqust ayında Vaşinqtonda Polşanın NATO-ya qəbul edilməsinə etiraz etmədiyini, bunun Rusiyanın dövlət maraqlarına zidd olmadığını və bu qərarın müstəqil dövlətin müstəqil qərarı olduğunu elan etmişdi. O həmçinin Rusiyanın NATO-ya daxil olmasının mümükünlüyü barədə fikirlər də səsləndirmişdi.

90-cı illərin əvvəllərində (xüsusi ilə Corc Buşun prezidentliyi dövründə) ABŞ bu məsələyə münasibətdə bir qədər laqeyd mövqe nümayiş etdirir və Polşanın NATO-ya erkən qəbulunun Rusiyanı məyus edəcəyindən ehtiyatlanırdı. Əvvəl NATO-ya yeni üzvlərin qəbulunun əleyhinə olan «Ağ ev» açıq şəkildə təşkilatın genişlənməsi əleyhinə fikirlərini bildirir və xüsusilə vurğulayırdı ki, bu proses rusları incik sala bilər.

90-cı illərin I yarısına qədər ABŞ-ın NATO-nun genişlənməsi məsələsinə münasibətdə nümayiş etdirdiyi mövqeyi Rusiyadakı siyasi proseslərdən müəyyən qədər asılı olduğu halda, sonrakı illərdə bu asılılıq tədricən zəifləyir. Soyuq müharibənin başa çatması, dünyada yeni beynəlxalq münasibətlər sisteminin formalaşması, ABŞ-da 1994-cü ilin noyabrında konqres seçkilərində NATO-nun genişləndirilməsinin tərəfdarları kimi çıxış edən respublikaçıların qələbəsi ABŞ-Avropa münasibətlərinə böyük təsir göstərir və nəticədə Transatlantika münasibətləri ciddi təkamülə məruz qalır. Dünyanın yeganə fövqəldövlətinə çevrilən ABŞ üçün NATO-nun əhəmiyyəti daha da artır.

1994-cü ilin yanvar ayında NATO-nun Brüsseldə keçirilən sessiyasında alyansın genişlənməsinin əhəmiyyəti haqda məsələlər müzakirə edilməklə yanaşı NATO-nun təxirsiz genişlənməsinə alternativ güzəştli variant hesab edilən «Sülhnaminə tərəfdaşlıq proqramı»nın hazırlanması haqda qərar qəbul edilir. Artıq NATO-nun genişləndirilməsinə tam dəstək verəcəyi haqda məramını elan edən ABŞ-ın təşəbbüsü ilə qəbul edilmiş «Sülh naminə tərəfdaşlıq

proqramı»nın məqsədi keçmiş sosialist ölkələri ilə hərbi sahədə əməkdaşlıq etmək və onları NATO-ya daxil olmaq üçün hazırlamaq idi . NATO ilə hərbi əməkdaşlıq etmək istəyən keçmiş sosialist ölkələri proqramın çərçivə sənədini imzalamalı idilər. Bu sənədi imzalayan hər bir ölkə NATO ilə fərdi əməkdaşlıq proqramını hazırlaya bilərdi.

Bu proqram, iştirakçılarına müştərək manevrlər, silahların konversiyası, NATO divarları arasında keçiriləcək iclaslarda iştirak hüququ verməklə bərabər NATO-nun yardımı ilə hər bir ölkənin iqtisadi inkişafını və hərbi potensialını nəzərə almaqla məxsusi əməkdaşlıq proqramlarının hazırlanmasını nəzərdə tuturdu (3).

NATO rəhbərliyi Brüsseldə qəbul edilmiş qərarların Rusiyaya qarşı yönəlmədiyini bəyan etsə də, Rusiya rəhbərliyi NATO-nun şərqə doğru genişlənməsi haqda qərarını etirazla qarşılayır. Rusiyanın etirazına məhəl qoymayan ABŞ konqresi 1994-cü il yanvarın 27-də NATO-nun genişlənməsini bəyənən qərar qəbul edir. ABŞ prezidenti Bill Klinton 1994-cü ilin yanvarında müsahibələrinin birində müasir dövrdə sovet təhlükəsi olmasa da, dünyada terrorizm, kütləvi qırğın silahlarının yayılması, etnik təmizləmələr və s. kimi yeni problemlərin meydana çıxdığını və bu şəraitdə məhz NATO-nun Avropada təhlükəsizliyin təminatçısı kimi çıxış etdiyini bildirir. NATO-nun Şərqə doğru genişlənmə məsələsini dəstəkləyən Klinton, alyansın mütləq genişlənəcəyini və Rusiyanın alyansa üzv olmaq istəyən dövlətlərə əngəl törətməyə haqqının olmadığını bəyan edirdi (4).

Artıq 90-cı illərin II yarısından başlayaraq ABŞ-ın bölgədə lider mövqeyini təmin etmək məqsədi ilə Vaşinqtonda NATO-ya daxil olmaq istəyən Şərqi Avropa dövlətləri ilə intensiv danışıqlar formulu yaradılır. Vaşinqtonun NATO-nun genişlənməsi, daha təhlükəsiz və böyük Avropa-Atlantik cəmiyyətinin yaradılması haqda məsələni öz xarici siyasətinin prioritet məqsədi elan etməsi Rusiya ilə siyasi, hərbi-strateji əlaqələrdə dərin böhran yaradır. Bu dövrdən başlayaraq Rusiya alyansın genişlənməsi ilə əlaqədar daha sərt mövqe nümayiş etdirirdi. Alyansın nüfuz dairəsinin və hərbi infrastrukturunun Rusiya sərhədlərinə yaxınlaşması nəticəsində ABŞ-ın qitədə rəqib kimi Rusiyanın geosiyasi və hərbi potensialının bərpasına imkan verməyəcəyini anlayan Moskva NATO-ya ABŞ-ın rəhbərlik etməsini qəbul etmirdi. Rusiyaya görə Avrasiyada ABŞ-a yer yoxdur və NATO-nun genişlənməsi məhz ABŞ-ın öz təsir dairəsini genişləndirmək istəyi ilə bağlıdır.

1996-cı il 23 iyulda ABŞ konqresi NATO-nun şərqə doğru genişlənməsi haqda 3364 saylı qətnamə qəbul edir. Qətnamə ilə Polşa, Macarıstan və Çexiyanın NATO-ya qəbul edilməsi istiqamətində aparılacaq işlərə yardım məqsədilə 60 mln. dollar vəsaitin ayrılması ilə yanaşı Ukrayna, Moldova, Baltikyanı dövlətlərin də NATO-ya dəvət edilməsi haqda qərar qəbul edilir. ABŞ bununla faktiki olaraq, NATO-nun genişləndirilməsi məsələsini həyata keçirməkdə nə qədər qərarlı olduğunu və Rusiyanın da bu prosesə heç bir vəchlə mane ola bilməyəcəyini nümayiş etdirmiş olur.

NATO-nun genişlənməsi və Rusiyaya qarşı sərt xətt siyasətinin yürüdülməsinin tərəfdarı kimi tanınan ABŞ-ın yeni dövlət katibi Madlen Olbraytın 1997-ci ilin əvvəllərində Avropaya səfəri ilə NATO-nun Şərqə doğru genişlənməsi məsələsi ətrafında aparılan danışıqların növbəti mərhələsi başlayır. Rusiyaya səfəri zamanı Madlen Olbrayt Moskvanı alyansın genişlənməsinin Rusiya təhlükəsizliyini təhdid etməyəcəyinə inandırmağa çalışır (5, 302).

NATO nüvə silahlarının Mərkəzi və Şərqi Avropa ölkələri ərazisində yerləşdirilməsi məsələsi danışıqlarda əsas mübahisə obyekti idi. Bu məsələ üzrə ciddi müzakirələr hələ 1995-ci ilin əvvəllərində başlamışdı. Narahat Moskvanı sakitləşdirmək üçün Vaşinqton Şərqi və Mərkəzi Avropada nüvə silahlarının yerləşdirilməsinə ehtiyac olmadığını və ABŞ administrasiyasının doktrinlərində də bu məsələnin nəzərdə tutulmadığını elan edirdi.

Madlen Olbraytın Avropaya səfəri zamanı NATO-nun genişlənməsi məsələsinə münasibətdə Avropanın ABŞ-dan fərqli mövqedə olduğu və Avropa dövlətlərinin NATO-nun genişlənməsi məsələsinə ehtiyatla yanaşdığı ortaya çıxır. Onlar Vaşinqtonun bu məsələdə nümayiş etdirdiyi sərt mövqeyinin Avropa maraqlarına zərbə vurduğuna inanırdılar. NATO-nun genişlənməsinin Rusiyanın razılığı ilə baş verməsinə tərəfdar olan Almaniya və Fransaya görə Rusiyanın bərabərhüquqlu üzv kimi NATO-nun digər üzvləri ilə bərabər masa arxasında oturmasına imkan verən xüsusi komitə yaradılmalıdır. Məhz həmin masa arxasında bütün təhlükəsizlik və müdafiə məsələləri: müştərək missiyalarda iştirak etmə, raket əleyhinə müdafiə sisteminin yaradılması sahəsində əməkdaşlıq, hərbi məlumatların mübadiləsi kimi məsələlər müzakirə olunmalıydı.

Moskva bu illərdə Avropa–ABŞ ziddiyyətlərindən maksimum dərəcədə istifadə etməyə çalışırdı. 1997-ci ildə B.Yeltsin Xarici İşlər naziri Y.Primakova NATO-nun genişlənməsinə qarşı cavab olaraq «tədbirlər paketi»ni hazırlamağı tapşırır. Avropanı ABŞ-ın hegemoniyasından qurtarmaq və NATO-nun Avropalaşmaq cəhdlərini Rusiyanın xeyrinə istifadə etmək məqsədilə Y.Primakov NATO-nun genişlənməsi məsələsini müzakirə etmək üçün 5 dövlət liderinin (ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, Rusiya) iştirak edəcəyi sammitin çağırılması haqda Fransa Xarici İşlər naziri Erve De Şarettin fikrini dəstəkləyir (6). Rusiya üç böyük Avropa dövlətinin ABŞ-a müqavimət göstərə biləcək həmrəyliyinə ümid edir və bu istiqamətdə ciddi diplomatik fəaliyyət göstərirdi. Lakin tezliklə bu ideyanın reallaşmasının qeyri-mümkünlüyü Rusiya üçün aydın olur. Belə ki, ABŞ ilə bütün ziddiyyətlərinə baxmayaraq Qərbi Avropa dövlətləri ABŞ-ın iştirakı olmadan təhlükəsizliklərinin təmin edilməsinin qeyri-mümkün olduğunu gözəl bilirdilər.

Şərqi Avropada hakimiyyətə yeni solçu qüvvələrin gəlməsi Rusiyada müəyyən ümidlər doğursa da, A.Kvasnevski, A.Brazauski kimi yeni liderlər də NATO siyasətində heç bir dəyişiklik etmirlər. Artıq 1997-ci ildə Qərb də, Rusiya da etiraf edirdi ki NATO-nun genişlənməsi məsələsi praktiki olaraq

həll edilib və indi əsas mübahisə obyekti hansı ölkənin hansı ardıcıllıqla bu alyansa qəbul edilməsi məsələsi idi.

Beləliklə, NATO-nun genişlənməsi prosesinin qarşısını almaqda aciz qalan Rusiya məcburiyyət qarşısında qalaraq NATO ilə danışıqlara girib, alyansın genişlənməsinin Rusiya üçün gələcəkdə doğura biləcək mənfi nəticələrini minimum səviyyəyə endirmək istiqamətində fəaliyyətə başlayır. Gərgin danışıqlar nəticəsində Rusiya Federasiyası və NATO arasında «Əməkdaşlıq və təhlükəsizlik sahəsində qarşılıqlı əlaqələrin hüquqi əsası»nı təşkil edəcək aktın mətni müəyyənləşdirilir. NATO-Rusiya əlaqələrinin strukturunu təsbit edən bu sənəd 1997-ci il mayın 27-də Parisdə B.Yeltsin, NATO-nun baş katibi Xavyer Solano və 16 NATO üzvü tərəfindən imzalanır.

NATO dövlətləri və Rusiya əməkdaşlıq mühitinin inkişafı üçün birlikdə fəaliyyət göstərmək barədə razılığa gəlirlər. Akta əsasən NATO yeni üzvlərinin yəni, Varşava Müqaviləsi Təşkilatının keçmiş üzvlərinin ərazisində nüvə silahlarını və silahlı qüvvələrini yerləşdirməmək, bu ərazidəki hərbi bazalardan istifadə etməmək haqda Rusiyaya qarantiya verir. Razılığa əsasən Rusiya-NATO Birgə Daimi Məşvərət Şurası yaradılmalı və ildə iki dəfə xarici işlər və müdafiə nazirləri, hər ay isə səfirlər və NATO Şurasındakı daimi nümayəndələr səviyyəsində məsləhətləşmələr keçirilməli idi. Bu Şurada iştirak edən tərəflər tam hərəkət azadlıqlarını saxlayırlar, lakin Rusiya bu dəfə də can atdığı veto hüququnu ala bilmir (7).

Əslində, Rusiyada NATO-nun genişlənməsini təhlükə hesab edən müxalifətin güclənməsi ilə B.N.Yeltsinin nüfuzuna zərbə vurulacağından ehtiyat edən Qərb hüquqi öhdəçilik xarakteri daşımayan bu siyasi aktın imzalanması ilə Rusiyadakı NATO əleyhdarlarını müəyyən qədər neytrallaşdırmaq istəyirdi.

1997-ci il 8 iyulda Madriddə keçirilən NATO sammitində daimi üzvlərlə bərabər alyansa üzv olmaq istəyən və «Sülhnaminə tərəfdaşlıq proqramı»nı imzalayan dövlətlər də iştirak edirdilər. «Avro-Atlantik Əməkdaşlıq Proqramı» çərçivəsində keçirilən sammitdə NATO-ya üzv qəbul edilməsi üçün iki illik sınaq müddətinin verildiyi Macarıstan, Polşa, Çexiya rəsmən alyansa dəvət edilirlər.

ABŞ-ın istəyi ilə seçilən bu üçlük Vaşinqton tərəfindən qərb demokratiyasına sədaqətini sübut etmiş dövlətlər kimi yüksək qiymətləndirilirdi. Madriddə həmçinin NATO-nun 1999-cu ildə keçiriləcək növbəti sammitində Rumıniya və Sloveniyanın da alyansa qəbul edilməsi məsələsinin müzakirə ediləcəyi bildirilir.

Madrid sammitində NATO-Ukrayna arasında qarşılıqlı əlaqələrin əsasları haqda xüsusi xartiya da imzalanır. Saziş tərəflər arasında məsləhətləşmələri və hərbi siyasi əməkdaşlığı nəzərdə tuturdu. Bu xartiyanın imzalanması əslində Rusiyanın nüfuz dairəsi hesab edilən MDB məkanının da NATO-nun maraq dairəsinə düşdüyü haqda öncədən verilmiş xəbərdarlıq siqnalı idi.

ABŞ-ın keçmiş SSRİ dövlətlərinə marağı onun qitədəki fəaliyyət strategiyasına tam uyğun idi. Hələ 1993-cü ildə NATO öz məsuliyyət zonasına bütün Cənubi Qafqazın da daxil edildiyini bildirmişdi. 1994-cü ilin yanvarında Litva rəsmi olaraq NATO-ya üzv olmaq istədiyini bəyan edərək, keçmiş SSRİ məkanında bu istiqamətdə addım atan ilk dövlət olmuşdu. Baltikyanı dövlətlərin ardınca Ukrayna, Moldova, Gürcüstan və Azərbaycan da «Sülhnaminə tərəfdaşlıq proqramı»nı imzalamaqla NATO ilə hərtərəfli əməkdaşlığa can atan dövlətlər sırasına daxil olurlar.

Rusiya MDB dövlətlərinin Şərqi Avropa ərazisinə daxil olmadığını əsas gətirərək bu dövlətlərin NATO-ya qəbul edilməsinə etiraz edirdi. Lakin XX əsrin sonlarında NATO-ya qəbul edilə biləcək Mərkəzi və Şərqi Avropa ölkələrinin sərhədlərinin harada qurtardığı haqda məsələ yeni politologiyada ciddi müzakirə mövzusu olur. Yeni politologiyaya görə Mərkəzi və Şərqi Avropa anlayışı özündə keçmiş sosialist sisteminin üzvü olan Avropa dövlətlərini də birləşdirir. Bura 3 Baltikyanı dövlət də (Latviya, Litva, Estoniya) daxil edilirdi. 1994-cü ildə ABŞ dövlət katibliyində Mərkəzi və Şərqi Avropa əvəzinə, Mərkəzi Avropa termininin işlədilməsi barədə təlimat verilmiş və bu təlimatda Mərkəzi Avropa sərhədlərinə MDB dövlətlərindən olan – Ukrayna, Belorusiya, Moldova, həmçinin Gürcüstan və Azərbaycan da aid edilmişdi.

1999-cu ilin martında lazımi proseduralardan sonra Polşa, Çexiya, Macarıstan NATO-ya qəbul edilir. Beləliklə, rəsmi olaraq bu dövlətlərin NATO-ya üzv qəbul edilmələri ilə alyansın sərhədləri 750 min km irəli çəkilir. Rusiyanın birinci namizədlər qrupunun NATO-ya qəbulundan sonra alyansın genişlənmə prosesinin dayandırılacağına bəslədiyi ümidləri isə özünü doğrultmur. 1999-cu ilin 23-24 aprelində Vaşinqtonda keçirilən NATO-nun yubiley sessiyasında Albaniya, Bolqarıstan, Latviya, Litva, Makedoniya, Rumıniya, Slovakiya və Estoniya da alyansa daxil olmaq üçün namizədliklərini elan edirlər.

Vaşinqton sammitində NATO-nun yeni geostrateji reallığa uyğunlaşdırılmış strateji konsepsiyası qəbul edilir. XXI əsrdə NATO-nun yeri və rolunu müəyyənləşdirən bu sənəddə NATO-nun əsas məqsədləri, öhdəlikləri, strateji perspektivləri, həmçinin onun gələcəkdə siyasi və hərbi inkişaf strategiyası dəqiq müəyyənləşdirilmişdi. «Millətlərarası çevik qüvvələr» adlı yeni strateji konsepsiya ilə alyansın fəaliyyət dairəsini coğrafi cəhətdən genişləndirilməsi nəzərdə tutulurdu (8). Alyans artıq öz funksiyalarını üzv dövlətlərin ərazisindən kənarda da həyata keçirməyə hazır olduğunu bəyan edir. Bu nəzəriyyə əsasən Balkanlardakı hadisələrlə əlaqədar qəbul edilmişdi və NATO üzvü olmayan Serbiyaya qarşı güc tətbiq etmək üçün hüquqi əsas yaradırdı.

1999-cu ilin martında Kosovo böhranını özünün uyğun bildiyi şəkildə həll edən NATO, özünü Serbiyanın müttəfiqi adlandıran Rusiyanın bu məsələyə müdaxiləsinə imkan vermir. Bu hadisə NATO-nun sülhün qorunması və beynəlxalq təhlükəsizliyin təmin edilməsi üçün real güc olduğunu göstərdi. Əslində, Kosovo böhranının həlli sırf ABŞ-ın qələbəsi idi. ABŞ bu böhranın

həll edilməsində nümayiş etdirdiyi qətiyyəti ilə bir daha NATO-nun sözsüz lideri olduğunu təsdiq etmiş olur.

Serbiya ilə əlaqədar NATO və Rusiya arasında yaranan gərginlik daha da artır. 1999-cu il Kosovo böhranında Rusiya serblərin vəkilinə çevrilməklə növbəti dəfə NATO ilə əlaqələrində mövcud olan qarşıdurmanın aradan qaldırılması imkanını əldən buraxır. Belə ki, Rusiya ABŞ-ın sərt siyasətinə cavab jesti kimi müvəqqəti olaraq NATO ilə əlaqələrinin əsasını təşkil edən aktla nəzərdə tutulmuş əməkdaşlığı dayandıraraq, Daimi Hərbi Məşvərət Şurasında iştirakdan imtina edir.

Lakin Rusiyanın NATO-nun genişlənməsinin ikinci dalğasına mane ola bilməyəcəyi aydın idi, çünki bu prosesin XXI əsrdə dünyanın siyasi reallığına çevriləcəyi məlum olmuşdu. 2000-ci ildə Rusiyanın yeni Xarici İşlər naziri İqor İvanov təhlükəsizlik məsələləri ilə əlaqədar strateji qərarların qəbul edilməsində Rusiyanın rəyi ilə hesablaşmayana qədər alyansla dialoq yaratmağın əleyhinə olan sərt siyasət tərəfdarlarının əksinə, alyansla əlaqələrin bərpasının vacibliyini vurğulayır. Tezliklə, İqor İvanov NATO ilə əlaqələrin bərpasına nail olur.

2001-ci ildən başlayaraq Rusiya və ABŞ əlaqələrində müəyyən qədər isti münasibətlər müşayiət (və ya belə təsəvvür yaranırdı) edilirdi. Rusiya 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-a müttəfiq olduğunu sübut etmək məqsədilə, problemsiz olaraq onun Əfqanıstanda hərbi əməliyyatlar üçün öz hava məkanından istifadə etməsinə və Orta Asiyada bazalar yaratmasına icazə verir. Hərbi-siyasi əlaqələrdə baş verən bu yaxınlaşmanın ardınca, 2002-ci il 28 mayda Rusiya NATO-nun Romada keçirilən sammitinə dəvət edilir. Sammitin gedişində rəsmi olaraq Rusiya-NATO Şurası adlı xüsusi orqanın yaradıldığını elan edən bəyannamə imzalanır. Bu orqan çərçivəsində tərəflər NATO və Rusiyanın ümumi maraqlarına aid məsələlərin müzakirəsini nəzərdə tuturdular. Beynəlxalq təhlükəsizlik məsələlərində tərəflər konsensus qərarların qəbul edilməsi üçün məsləhətləşmə metodu ilə işləməli idilər. Rusiyaya NATO-nun bərabərhüquqlu partnyoru statusunu verən bu müqavilə ilə faktiki olaraq Rusiya və NATO arasında xüsusi əlaqələr yaradılır.

## ƏDƏBİYYAT


1. Стратегические концепции Североатлантического Союза. Справочник НАТО. Брюссель, 2001, 670 с.
2. Барановский В. Микромодель европейской безопасности. // МЭ и МО, №6, 1996, с. 40-50.
3. Partnership for peace. Brussels, NATO Review, 1994 N4, August.
4. Clinton W. National Security of the United States 1994-1995. Engagement and Enlargement, Wash., 1995.
5. Олбрайт М. Госпожа Госсекретарь (мемуары). М.: Наука, 2004, 566 с.
6. Примаков Е.М. Годы в большой политике. В 2-х т., т 1. М.: Наука, 1999, 247 с.
7. Основополагающий акт о взаимных отношениях, сотрудничестве и безопасности между Российской Федерацией и Организацией Североатлантического договора // Дипломатический вестник, 1997, 28 мая.
8. Стратегические концепции Североатлантического Союза. Справочник НАТО. Брюссель, 2001, 670 с.

## ПРОЦЕСС РАСШИРЕНИЯ НАТО НА ВОСТОК ВО II ПОЛОВИНЕ XX ВЕКА

**Г.М.МАМЕДОВА**

### РЕЗЮМЕ

В 1994 году на сессии НАТО в Брюсселе было принято решение о переходе альянса к проведению политики расширения на Восток. Со II половины XX века США объявили приоритетной задачей своей внешней политики вопрос о расширении НАТО. Расширение НАТО непосредственно было связано с желанием США расширить сферу своего влияния. С 1997 года страны СНГ, считавшиеся сферой влияние России, также были объявлены сферой интересов НАТО. В 1999 году Польша, Чехия и Венгрия были приняты в НАТО, а Албания, Болгария, Латвия, Литва, Македония, Румыния, Словакия и Эстония выдвинули свои кандидатуры на присоединение к альянсу.

**Ключевые слова:** НАТО, Восток, процесс, расширение, отношения

## NATO'S EXPANSION TO THE EAST IN THE SECOND HALF OF THE XX CENTURY

**G.M.MAMMADOVA**

### SUMMARY

In 1994, at NATO's session in Brussells the decision on alliance transition to carrying out of a policy of expansion to the East was accepted. From the second half of the XX century USA declared a question of NATO's expansion to be a priority problem of its foreign policy. NATO's expansion has directly been connected with USA's desire to expand its sphere of influence. Since 1997 the CIS countries considering Russia as a sphere of influence have also been declared as spheres of interests of NATO. In 1999 Poland, Czech Republic and Hungary have been accepted to the NATO, and Albania, Bulgaria, Latvia, Lithuania, Macedonia, Romania, Slovakia and Estonia put forward the nominees on joining the alliance.

**Key world:** NATO, East, process, expand, relations